BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2013

UOT: 340.1; 321.01

# HÜQUQİ NİHİLİZMİN STRUKTURU VƏ SƏVİYYƏLƏRİ

**E.N.HƏMİDOV**
***Bakı Dövlət Universiteti***
***nelmaddin@yahoo.com***

*Məqalədə ən əvvəl qeyd olunur ki, cəmiyyətdə hüquq subyektlərinin hüquq göstərişlərinə dair etinasızlıq dərəcəsindən asılı olaraq hüquqi nihilizm özünü fərdi hüquqi nihilizm, kollektiv hüquqi nihilizm və kütləvi hüquqi nihilizm kimi büruzə verir. Qeyd olunur ki, hüquq subyektinin əməllərinə əsasən hüquqi nihilizmin mövcudluğu və nəticələri haqqında mülahizələr yürütmək olar. Belə ki, o, aktiv və passiv, düşünülmüş və kortəbii, sabit və vəziyyətdən asılı ola bilər.*

*Məqalədə həmçinin bildirilir ki, hüquq düşüncəsinin deformasiya formalarından biri kimi, hüquqi nihilizmin strukturunda üç əsas elementi - ideoloji, psixoloji və davranış komponentlərini ayırmaq lazımdır. Bununla əlaqədar müəllif tərəfindən müvafiq neqativ fenomenin aradan qaldırılması üzrə bəzi təkliflər irəli sürülür.*

**Açar sözlər**: nihilizm, hüquqi, struktur, səviyyə, ideologiya, psixologiya, neqativ

Hüquqi nihilizm bir sosial-hüquqi hadisə kimi mürəkkəb struktura malikdir. Məlum olduğu kimi, hər bir mürəkkəb struktur həmişə öz elementlərinin cəmi və qarşılıqlı əlaqəsi ilə təzahür edir. Əgər maddi cisimlərin strukturu onların tərkibində müstəqil ünsürləri ayırmağa imkan verirsə, ictimai şüurun strukturu bu cəhətdən öz xüsusiyyəti ilə seçilir. İctimai şüurun strukturunda ayrı-ayrı elementlərin konkret məkani yerini müəyyənəşdirmək mümkün deyil, çünki onlar ayrılmazdır və qarşılıqlı şəkildə bir-birinə təsir edirlər. İctimai şüurun spesifikası mənəvi hadisənin təbiəti ilə şərtlənən keyfiyyət xüsusiyyətlərində ifadə olunur. Hər bir halda hüquqi nihilizmin strukturunun tədqiqi zamanı aşağıdakı məqamlar mütləq nəzərə alınmalıdır:

- hüquqi nihilizmin konkret tərkib elementləri;
- hüquqi nihilizmin əsas elementlərinin daxili əlaqələri;
- hüquqi nihilizm fenomeninin spesifik xüsusiyyətləri.

Şübhəsiz, hüquq düşüncəsinin fenomeni olan hüquqi nihilizm öz daxili strukturunun quruluşunda bütün şüur formaları üçün bir sıra ümumi qanunauyğunluqlara malikdir. Hüquqi nihilizm strukturunun ictimai şüurun digər təzahürlərinin strukturlarından fərqi əsas etibarilə bu hadisənin spesifikası ilə

bağlıdır. Beləliklə, belə hesab edirik ki, ictimai şüurun neqativ formalarından biri olan hüquqi nihilizm mürəkkəb hadisədir, özünün ideologiya və psixologiya kimi struktur elementləri var.

Hüquqi nihilizmin ideologiya və psixologiya özünəməxsusluğu ondan ibarətdir ki, hüquqi tənzimləməni əvəz edən bu və ya digər normalara münasibətdən başqa, bunlara həm də bilavasitə hüquqi gerçəkliyin inkarı ilə bağlı olan münasibətlər daxildir. Güman edirik ki, hüquqi gerçəkliyin inkarı intensivlik dərəcəsinə görə iki formada təzahür edir: açıq və ya gizli. Birinci halda hüquq bir dəyər kimi qəti şəkildə inkar edilir, onun cəmiyyətin həyatından tamamilə kənarlaşdırılması barədə çağırışlar irəli sürülür. Hüququ açıq inkar edən şəxslər hüququn ictimai dəyər olmasına qarşı çıxış edirlər. Çünki hesab edirlər ki, o, cəmiyyətdə azadlıq, ədalət və bərabərlik kimi dəyərləri təmin etmir.

Hüquqi nihilizmin açıq formasının inkişafında, bir qayda olaraq, ideologiya psixologiyadan öndə gəlir. Əksər hallarda hüququn inkarı gizli, passiv formada baş verir. Gizli formada hüquqi nihilizm daha mürəkkəb hadisədir, onun aşkar edilməsi çətindir. Bu halda hüquqi nihilizm subyektləri hüquqi gerçəkliyi bilavasitə, açıq şəkildə inkar etmirlər. Belə yanaşmada hüquqi nihilizm elə baxışlar sistemidir ki, burada hüquq açıq şəkildə inkar edilmir, lakin digər sosial tənzimləmə institutları (din, əxlaq, mənəviyyat və s.) ilə müqayisədə ona az əhəmiyyət verilir. Belə yanaşmada psixoloji məqamlara daha çox diqqət yetirilir.

Fikrimizcə, hüquqi nihilizm ideologiyasının öz səciyyəvi xüsusiyyətləri və xarakterik cəhətləri var. Hüquqi nihilizm ideologiyası çox zaman ictimai münasibətlərin ayrı, təcrid edilmiş qrupun məlumatlarını nəzərə almadan sosial normaların ümumi sisteminin qanunauyğunluqları ilə razılaşdırmadan ümumi tənzimləmə ideyasını irəli sürür. Burada hüquq nəzərə alınmır, bəzən hətta inkar edilir. Elmi nöqteyi-nəzərdən hüquqi nihilizm ideologiyası, bir qayda olaraq, kortəbii formalaşır və əksər hallarda məntiqi olmur və elmi cəhətdən sona qədər əsaslandırılmır.

Hüquq düşüncəsi formalarının səciyyəvi xüsusiyyətləri onların dinamikasında, keçid xarakterli olmasında təcəssüm edir. Müvafiq olaraq, nihilist düşüncə ictimai dayaqların böhranı şəraitində, bir ictimai quruluşdan digərinə keçid zamanı yaranır. Belə yenidənqurmalar və keçidlər zamanı, fikrimizcə, münaqişəli vəziyyətlər yaranır, hüquqi ideologiya, hüquq və cəmiyyətdə formalaşmış real iqtisadi münasibətlər arasındakı ziddiyyətlər kəskinləşir.

Beləliklə, hüquqi nihilizm ideologiyası daha çox hüquqi ideologiyanın cəmiyyətin müəyyən inkişaf mərhələsində formalaşmış iqtisadi münasibətləri obyektiv əks etdirmədiyi bir zaman meydana gəlir və inkişaf edir.

Fikrimizcə, hüquqi gerçəkliyə neqativ təsir göstərən destruktiv faktorların təhlili və öyrənilməsi üçün hüquqi nihilizm psixologiyasının nəzərdən keçirilməsi mühüm rol oynayır, çünki hüquqi nihilizm psixologiyası sosial psixologiyanın formalarından (növlərindən) biridir. Sosial psixologiya isə müəyyən qrupların, millətlərin hissləri, əhvalları, psixi xüsusiyyətlərinin,

kortəbii formalaşan və qeyri-formal, sistemləşdirilməmiş xarakter daşıyan adət və ənənələrinin məcmusu kimi xarakterizə edilir. Cəmiyyətin, sosial qrupların tələbat və maraqlarının konseptual, sistemləşdirilmiş ifadəsi olan ideologiyadan fərqli olaraq, sosial psixologiya bu maraq və tələbatları rasional deyil, empirik ifadə edir.

Yuxarıda deyilənlərə əsasən, hüquqi nihilizm psixologiyasını hisslərin, əhvalların, illüziyaların, təsəvvürlərin məcmusu kimi qiymətləndirmək olar: bu təsəvvürlər hüquqi gerçəkliyin inkarını ifadə edir, müəyyən sosial qrupların, fərdlərin tələbatlarına uyğun gəlmir və buna görə də psixoloji cəhətdən müsbət münasibəti rədd edir.

Hüquqi nihilizm psixologiyası fərdlərin, böyük və kiçik sosial qrupların yaşayış tərzini təzahür edən ictimai münasibətləri bilavasitə əks etdirir. Fikrimizcə, hüquqi nihilizm psixologiyasının fenomenləri xaraktercə məhduddur. Ən əvvəl, fərdlərin, qrupların bilavasitə həyat fəaliyyətləri sferasındakı dəyişiklikləri əhatə edir və hüquqi gerçəkliyə qarşı kortəbii formalaşan neqativ münasibət kimi xarakterizə edilir.

Hüquqi nihilizm psixologiyası dövlət qurumları ilə qarşılıqlı münasibətlərdən narazılığın nəticəsi kimi, qrupda, kollektivdə, cəmiyyətdə hüquq normaları ilə nizamlanmış, ancaq insanların maraqlarını ifadə etməyən ünsiyyətin xarakterindən yaranır. Çox zaman sosial münasibətlərin hüquqi nizamlanmasına neqativ psixoloji münasibət hüquq realizəsinin layiqli mexanizmi və şəraiti olmaması üzündən meydana gəlir. Hüquqi nihilizm psixologiyası öz ifadəsini lətifələrdə, qeyri-hüquqi qiymətləndirmədə, kütləvi informasiya vasitələrinin skeptik materiallarında tapır.

Beləliklə, hüquqi nihilizmin ideoloji və sosial-psixoloji əsasını obyektiv hüquqi gerçəkliyin inkarı təşkil edir. Bununla əlaqədar əhəmiyyətli ictimai münasibətlərin qaydaya salınmasında digər sosial tənzimləyici institutların köməyinə müraciət edilir.

Hüquqi nihilizm vətəndaşların hüquq düşüncəsinin inkişafına, hüquq prinsipləri və normaları, hüquq münasibətləri və hüququn mahiyyəti haqqında düzgün təsəvvürlərin formalaşmasına neqativ təsir göstərir. Hüquq normalarına faktik əməl edilməməsi və ya bəzi adamların daxili əqidələrinə görə bunlara şüurlu şəkildə laqeyd münasibətləri hüquqi nihilizmin tənzimləyici rolunu göstərir.

Hüquqi nihilizmin xarakterindən, cəmiyyətdə hüquq subyektlərinin hüquq göstərişlərinə dair etinasızlıq dərəcəsindən asılı olaraq hüquqi nihilizmi üç qrupa ayırmaq olar:

1) fərdi hüquqi nihilizm;
2) kollektiv (qrup) hüquqi nihilizm;
3) kütləvi hüquqi nihilizm.

Hüquq düşüncəsinin deformasiya formalarından biri kimi, hüquqi nihilizmin strukturunda üç əsas elementi - ideoloji, psixoloji və davranış komponentləri ayırmaq lazımdır. Gerçəklikdə hər üç komponent bir-biri ilə sıx

bağlıdır, onların bir-birinə qovuşması və qarşılıqlı təsiri hər zaman müşahidə edilir. Bununla əlaqədar olaraq, bəzən onları bir-birindən ayırmaq çox çətin olur. Hər bir halda ideologiya və psixologiya defektli hüquq düşüncəsi daşıyıcısının davranışını müəyyən edən bir "süzgəc"dir. Belə ki, hüququn öz funksiyalarını, həqiqətən, yerinə yetirməsi üçün onun təbiətini, məqsəd və əsaslarını düzgün dərk etmək (ideologiya və psixologiya vasitəsilə) və dərk edilmişi iradə və həyat fəaliyyətinin (ictimai münasibət subyektinin davranışı) predmeti etmək zəruridir. Yüksək səviyyəli hüquq düşüncəsi ilə hüququn rolu dərk edilir və təsdiqlənir, cəmiyyətin tələbatına müvafiqlik meyarları nöqteyi-nəzərindən ona qiymət verilir, qüvvədə olan qanunvericilik sisteminin zəruriliyi dərk edilir, hüquq tətbiqi praktikasının proses və nəticələri qavranılır. Bu da hüquq düşüncəsi xarakteristikasının "hüquqi nihilizm" termini vasitəsilə həyata keçirilməsinin tam ziddinədir.

İdeoloji komponent hüquqi nihilizm hadisəsinin struktur tərkibi kimi, cəmiyyət üzvlərində qüvvədə olan hüquq və hüquqi gerçəkliyi neqativ-mənfi əks etdirən və qiymətləndirən baxışların, anlayış və əqidələrin mövcudluğundan ibarətdir. Cəmiyyətin müasir "qüsurları", ən əvvəl, ideoloji bünövrənin qüsurlarını əks etdirir. Bu da öz əksini digər sosial-neqativ hallarla yanaşı, hüquqi nihilizm ideologiyasında tapır. Hüquqi ideologiya üçün konseptual və ya sistemli şəkildə formalaşdırılmış struktur xarakterikdir. Bundan fərqli olaraq, nihilizm ideologiyası hüquqda aid hər hansı bir dəqiq proqramın olmaması və ya onun qeyri-müəyyənliyi ilə səciyyələnir. Əgər hüquqi ideologiyanın hazırlanmasında hüquqşünaslar, praktik işçilər, siyasi xadimlər iştirak edirsə (söhbət məhz nəzəri hüquq düşüncəsindən gedir), hüquqi nihilizm ideologiyası təfəkkürün elə bir halıdır ki, burada hüququn rolunun, sosial dəyərlərin tam başa düşülməsinə mane olan görüşlər və stereotiplər üstünlük təşkil edir.

Hal-hazırda Azərbaycan Respublikasının səlahiyyətli dövlət orqanları qanunçuluq, hüquqi dövlət kimi ideyaların, həmçinin insan hüquq və azadlıqlarının aliliyinin təmin olunması istiqamətində mühüm işlər aparırlar. Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanına əsasən "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq dövlətlər birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insaniləşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir"(1).

Hüquqi dövlət quruculuğu şəraitində həm ictimai, həm də peşəkar hüquq düşüncəsinin daha da inkişafı, hüquqi nihilizm kimi neqativ təzahürlərin aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir. Hər bir halda hüquq düşüncəsinin hər hansı deformasiya forması (bu yalnız hüquqi nihilizm şəklində deyil) qəbul olunan qərarların icrasına neqativ təsir göstərir. Hal-hazırda, müəyyən çətinliklərə baxmayaraq, ölkəmizdə hüququn inkişafı sahəsində böyük nailiyyətlər əldə edilmişdir və bununla hüquqi nihilizmin ideoloji tərkibinin aradan qaldırılması üçün münasib şərait yaradılmışdır.

Məlumdur ki, neqativ hiss və emosiyalar hüquqi nihilizmin psixoloji komponentini təşkil edir. Bunlar hüquqi gerçəklik, cəmiyyət üzvlərinin hüquqlarına qarşı biganəlik və etinasızlıq kimi neqativ münasibətin formalaşmasına səbəb olur. Hüquqi nihilizmin psixoloji tərkibi ilə əlaqədar onun formalaşmasında milli psixoloji amillərin mühüm rol oynamasını da qeyd etmək lazımdır. Fikrimizcə, tarixən formalaşmış milli vərdiş və adətlər müasirləşdirmə dövrü mütləq nəzərə alınmalıdır. Belə ki, bəzi müəlliflər "insan hüquqlarını Qərb anlamında təbliğ edərkən çox zaman orada (Qərbdə) demokratiyanın inkişafının və digər xalqların özünəməxsus mədəniyyətinin tarixi köklərini unudurlar. Bir çox hallarda onların səyləri nəticəsində Qərb düşüncəsinin tarazlayıcı təsiri birliklərin milli-mədəni özünəməxsusluğunu zəiflədir və bu bölgələrdə şəraitin sabitliyini pozur… norma və dəyərlərin eroziyası baş verir ki, bu da güc hesabına bərqərar olunan normaların şüurlu və ya qeyri-şüurlu inkarında təzahür edir" (2, 26). Başqa sözlə, hüquqi nihilizmin psixoloji cəhətini hüququn ikincidərəcəli, insan hüquqlarının müdafiəsi üçün real imkanlara malik olmaması barədə hiss və təsəvvürlər və qeyri-şüuri elementlər (stereotiplər, vərdişlər və s.) təşkil edirlər.

Hüquqi nihilizmin strukturu hüququn nəzəri və psixoloji səviyyədə qavranılması ilə kifayətlənmir. O, ictimai münasibətlər subyektinin davranış aktı ilə yekunlaşır. "Əsas məqsəd gənc adamın cəmiyyətdə davranışının özünü tənzimləməsidir. Bu özünütənzimləmənin həyata keçirilməsi o halda mümkün olur ki, gənc adamın şəxsiyyəti üçün qanun sadəcə məhdudlaşdırıcı göstərişlərin formallaşdırılmış sistemi deyil, həm də sosial-mənəvi göstərişlərin əsasına çevrilir" (3, 259-260).

Sosial dəyərlərin mənimsənilməsi prosesində şəxsiyyətin mövqeləri kənar müşahidəçi rolundan maraqlı olana, maraqlı olandan əminliyə, sonra isə əməllərə doğru dəyişir. Burada subyektin etinasız davranışa meyilliliyi, hüquqların düşünülməməsi əsas rol oynayır. Bunlar bir sıra sosial (hüquq mədəniyyətinin lazımi səviyyədə olmaması, xüsusən də gənclər arasında işsizliyin mövcudluğu, bəzi kütləvi informasiya vasitələri tərəfindən yayımlanan xoşagəlməz sosial-psixoloji mənzərə, hüquqi biliklərin kifayət qədər formalaşmaması və s.) və psixofizioloji amillərin təsiri altında formalaşır və elə bunlar da davranışın spesifik tənzimləyicisi kimi çıxış edirlər.

Hüquqi nihilizmin strukturunda davranış komponenti müvafiq davranış növünün təyinatıdır. Hüquq düşüncəsinin strukturunda hüquqi göstərişlərə (qa-

nuni) və ya hüququ rədd etməyə (hüquqi nihilizm) müvafiq davranış variantının seçilməsində müəyyən rol oynayan əsas komponent bütövlükdə hüquqa, onun ayrı-ayrı norma və institutlarına, bunların praktikada tətbiqinə, qanuna əməl etməyə və pozuntulara, öz şəxsi davranışına göstərilən dəyər münasibətidir; bu, eksperimental tədqiqatlarla sübut edilir.

İctimai münasibətlər subyektinin davranışına bilavasitə onun hüquqi statusu təsir göstərir: bunun tərkibini sosial-iqtisadi hüquqlar, azadlıqlar və mükəlləfiyyətlər sistemi təşkil edir. Bir qayda olaraq, nihilizm davranış variantı kimi, subyektin şəxsi potensial imkanlarına uyğun olmayan sosial-hüquqi statusundan narazılığı nəticəsində meydana gəlir (4, 23).

Əməllər düşüncələrin məhsuludur, buna görə də məhz əməllərə əsasən hüquqi nihilizmin mövcudluğu və nəticələri haqqında mülahizələr yürütmək olar. O, aktiv və passiv, düşünülmüş və kortəbii, sabit və vəziyyətdən asılı ola bilər. İstənilən halda hüquqi nihilizm şəklində defektli hüquq düşüncəsi olan insanın davranışı ictimai münasibətlərin qurulması və tənzimlənməsində öz idealına istiqamətdir ki, bu da insanın praktik davranışını müəyyən edir. Ədəbiyyatda bir çox "hüquq fəaliyyəti mexanizmi" sxemləri belə bir əsas üzərində qurulmuşdur - yalnız "dar" normativist mövqedən bir tərəfdən hüquq norması arasında, digər tərəfdən isə insanın davranışı arasında birbaşa asılılıq göstərmək olar. Əslində insanların hüquq düşüncəsinə və davranışlarına hətta ən mühüm normativ hüquqi aktın göstərişlərindən daha çox, dövlət orqanlarının fəaliyyəti təsir edir. Bir çox hallarda hüquqi nihilizm bu və ya digər davranış qaydasında elə təzahür edir ki, ümumi hüquqi davranış qaydalarının pozulması azadlığın ifadəsi kimi qəbul edilir. Bu, kütləvi şüurda qüvvədə olan hüquq sisteminə və ümumiyyətlə, ictimai münasibətlərin hüquqi tənzimetməsinə neqativ münasibət formalaşdırır. Belə vəziyyət şəxsin cinayət təzahürlərindən müdafiə oluna bilməməsinə gətirib çıxarır və hüququn nüfuzunu aşağı salır.

Bu gün Azərbaycan Respublikasında insan hüquq və azadlıqları ali dəyər elan edilmişdir. Bununla belə, şəxsin şüurunda hüquq və azadlıqların əhəmiyyətini artıran qanunvericilik aktlarının təkmilləşdirilməsinin psixoloji aspekti çox mühüm rol oynayır. Aydındır ki, əgər hüquqi nihilizmin mənbəyini yalnız vətəndaşların hüquqi savadsızlığı təşkil etsəydi, onun aradan qaldırılması asan baş verərdi. Mövcud vəziyyət bir də onunla çətinləşir ki, hüquqi nihilizm şüur səviyyəsində hüququn potensialı və imkanlarına sabit inamsızlıqla müşayiət olunur. Bu da az və ya çox dərəcədə hüquq subyektinin davranış motivlərində öz əksini tapır. Hüquq düşüncəsinin deformasiyası bir çox hallarda insan hüquq və azadlıqlarına dair etinasızlığa səbəb olur, onun qanuni maraqlarının müdafiəsini mürəkkəbləşdirir, əhalidə dövlət hakimiyyət orqanlarının fəaliyyətinə dair inamsızlıq yaradır.

Şübhəsiz, hal-hazırda "qanunun yerinə yetirilməsinin məcburiliyi bizim həyatımıza daxil olmalı, sosial və maliyyə vəziyyətindən asılı olmadan hər bir vətəndaş üçün vərdişə çevrilməlidir" (5, 21). Hesab edirik ki, hüquqi nihilizm kimi "xəstəliyin" aradan qaldırılması üçün insanların yeni ümumbəşəri prinsip-

lərə əsaslanan düşüncələrinin formalaşmasından, onların sosial oriyentasiyalarının dəyişdirilməsindən başlamaq lazımdır.

Gündəlik həyatda insanlar sosial mühitin tələblərini mütləq nəzərə alırlar. Sosial şəraitə uyğunlaşmaqla insan özündə hərəkət etməli olduğu kimi davranmaq arzusu yaradan cəhətləri inkişaf etdirir. Hüququ inkar edən davranış onu cəmiyyətin dəyərlər sistemindən kənarlaşdırır. Son nəticədə insanlar özündə ümumbəşəri nailiyyətləri təzahür edən hüquqi göstərişlər əsasında deyil, dar şəxsi dəyər və maraqlar çərçivələrində düşünməyə və hərəkət etməyə başlayırlar.

Hal-hazırda inkişaf etmiş hüquq düşüncəsinin tərkibini təşkil edən əsas göstəriş qanun və hüquqa hörmətin, bunların göstərişlərini yerinə yetirməyə hazırlığın formalaşdırılmasından ibarətdir. Belə mövqe könüllü (daxili təbiətinə görə qanuna əməl edən) və ya məcburi (cəza qorxusu qarşısında qanuna əməl etmə) ola bilər. Lakin psixiatrların fikrincə, insanlar qanuna heç də cəza hədəsi üzündən yox, mənəvi qadağalar hesabına tabe olur (6, 107). Belə ki, hələ əfsanəvi Sparta hökmdarı Likurqun qanunlarının təbiəti haqqında mülahizələrində Plutarx belə bir fikri əsaslandırırdı ki, vətəndaşların xoşbəxtliyi və mənəvi kamilliyi üçün qanunlar onların adətlərinə və həyat tərzlərinə daxil olmalı və həmişə orada qalmalıdır. Azad iradə bunu məcburiyyətdən daha möhkəm edir, yəni insan qanuna elə münasibət göstərir ki, güya o özü bunu yazmışdır. Hüququ inkar edən şəxs hüquqda ali təyinat görmür, onun rolunu, sosial potensialını qəbul etmir. O, yalnız özünü mümkün arzuolunmaz nəticələrdən intuitiv olaraq "qorumağa" çalışır. Belə motivasiya şəxsin özü və cəmiyyət üçün arzuolunmaz və faydasızdır, çünki bu zaman o, dar hüquq düşüncəsi çərçivəsində hərəkət edir.

Hüquq düşüncəsinin neqativ təzahürlərini əks edən hüquqi nihilizm fərqli forma və səviyyələrə malikdir. Hüquqi nihilizmin səviyyələri dedikdə, geniş mənada hüquqi halların varlığına münasibət üsullarını başa düşmək lazımdır. Buna uyğun olaraq, hüquqi nihilizmin müxtəlif səviyyələrini göstərmək olar.

Hüquqa münasibət səviyyəsi emosional-psixi həyəcanlardan, o cümlədən subyektin alınmış informasiyanı qiymətləndirməsinin səviyyəsi və xarakterindən (ictimai maraqlar nöqteyi-nəzərindən pozitiv və ya neqativ istiqamətindən) asılı formalaşır. Burada aşağıdakılara münasibət səviyyəsini fərqləndirmək lazımdır:

- normativ hüquqi aktın mətninə;
- hüquq fəaliyyətinə, o cümlədən insanların hüquqi davranışlarına, öz şəxsi davranışlarına;
- qanunçuluğa və hüquq qaydalarına;
- hüquq mühafizə orqanların fəaliyyətinə, hüquq peşəsinə və s. (7, 163).

Hüquqi göstəriş səviyyəsi aşağıdakılardan formalaşır:

- subyektin hüquqi gerçəkliyin müxtəlif hallarına müəyyən şəkildə reaksiya verməyə meyilliliyindən (həmin hüquqi gerçəklik sosial tələbat və onun ödənilməsi situasiyası əsasında, həmçinin onun müəyyən hüquqi mahiy-

yətli hərəkətlərə meyilliliyi və hazırlığı əsasında meydana gəlir) (8, 14);

- şəxsiyyətin ümumi hüquqi meyillərini ifadə edən baza hüquq göstərişlərindən (9, 84).

Sonuncular konkret hərəkəti tənzimləyən, bir və ya bir-biri ilə sıx bağlı olan bir neçə hüquq normasına riayət etmək hazırlığını bildirir. Baza hüquq göstərişləri isə subyektin bütövlükdə hüquqa bir sosial dəyər kimi yanaşmasını və buna görə də hüquqi göstərişləri öz davranışında rəhbər tutmağa hazır olmasını ifadə edir.

## ƏDƏBİYYAT


1. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 2, maddə 92.
2. Кулиев Э. Роль НПО в формировании гражданского общества в Азербайджане / Право выбора – ответственность. Сборник аналитических статей. 2-ой выпуск – сентябрь 2004. Баку: «Абилов, Зейналов и сыновья», 2004, с.21-30.
3. Семенов В.Е. Проблемы правового нигилизма молодежи // Черные дыры в Российском законодательстве, 2008, № 3, с. 258-260.
4. Бондарев А.С. Правовой нигилизм - форма правовой антикультуры личности // Юридические науки. Вестник Пермского ун-та. Вып.2. Пермь, 2001, с.21-43.
5. Баяхчева С.Л. Идеология гражданского общества. М.: РИЦ «ПрофЭко», 2006, 416с.
6. Səməndərova A.F. Cəza hədəsinin qanunpozan şəxslərin davranışına təsirinin sosial-psixoloji məsələləri // Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2003, № 2, s.106-116.
7. Щегорцов В.А. Социология правосознания. М.: Мысль, 1981, 174с.
8. Щербакова Н.В. Правовая установка и социальная активность личности. М.: Юридическая литература, 1986, 125 с.
9. Асмолов А.Г. Деятельность и установка. М.: МГУ, 1979, 151с.


## СТРУКТУРА И УРОВНИ ПРАВОВОГО НИГИЛИЗМА

**Э.Н.ГАМИДОВ**

### РЕЗЮМЕ


В статье, в первую очередь, отмечается, что в зависимости от степени игнорирования со стороны субъектов права правовых предписаний правовой нигилизм проявляется как индивидуальный, групповой и всеобщий правовой нигилизм. Отмечается, что на основе поступков субъектов права можно выдвигать суждения о наличии и последствиях правового нигилизма. Так, он может быть активным и пассивным, осознанным и неосознанным, постоянным и ситуативным.

В статье также утверждается, что в структуре правового нигилизма, как одной из форм деформации правового сознания, следует различать три основных элемента - идеологические, психологические и поведенческие компоненты. В этой связи автором предложены некоторые рекомендации по искоренению данного негативного феномена.


**Ключевые слова:** нигилизм, правовой, структура, уровень, идеология, психология, негативный

**THE STRUCTURE AND LEVELS OF THE LEGAL NIHILISM**

**E.N.HAMIDOV**

**SUMMARY**

It is noted that depending on the degree of ignoring right the legal nihilism appears as individual, group and universal legal nihilism. It is noted that based on the actions of entities can be extended judgments about the existence and effects of legal nihilism. Thus, it can be active or passive, conscious and unconscious, permanent and situational.

The article also states that in the structure of legal nihilism, as a form of deformation of legal consciousness, we have to indicate three main elements - the ideological, psychological and behavioral components. In this regard, the author offers some recommendations for the elimination of this negative phenomenon.

**Key words:** nihilism, legal, structure, level, ideology, psychology, negative